# AZƏRBAYCAN RESPUBLİKASI
# MALİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI
# QƏRAR (çıxarış)

**№ Q-11** **14 oktyabr 2011-ci il**

## "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqindən irəli gələn bəzi məsələlərin həll edilməsi haqqında

**1.** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununun əhəmiyyəti, həmçinin həmin qanunun tətbiqi haqqında müvafiq Prezident Fərmanının icrası ilə əlaqədar olaraq işlər barədə nazirliyin Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinin müdiri Z.Allahverdiyevin, həmin Qanunda nəzərdə tutulmuş İcbari Sığorta Bürosunun təsis edilməsi və fəaliyyətə başlaması ilə əlaqəli qanunverici və inzibati məsələlər barədə Dövlət Sığorta Nəzarəti Xidmətinin rəisi N. Xəlilovun məruzələri nəzərə alınsın.

**2.** İcbari Sığorta Bürosunun iştirakçısı olmaq üçün müraciət etmiş sığortaçının ödəməli olduğu iştirak haqqının məbləği 200.000 (iki yüz min) manat müəyyən edilsin.

**3.** İcbari Sığorta Bürosunun iştirakçısı olmaq istəyən sığortaçının Büroya birdəfəlik olaraq ödəməli olduğu təminat depozitinin məbləği müvafiq icbari sığorta növləri üzrə aşağıdakı kimi müəyyən edilsin:

**3.1.** Daşınmaz əmlakın icbari sığortası üzrə – 100.000 (yüz min) manat;

**3.2.** Daşınmaz əmlak sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 100.000 (yüz min) manat;

**3.3.** Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 200.000 (iki yüz min) manat;

**3.4.** Sərnişinlərin icbari sığortası üzrə – 200.000 (iki yüz min) manat.

**4.** 2011-ci ilin 19 oktyabr tarixində İcbari Sığorta Bürosunun təsis iclası çağırılsın.

**5.** Bu qərarın icrasına nəzarət nazir müavini A. Bayramova həvalə edilir.

**6.** Bu qərar qəbul edildiyi tarixdən qüvvəyə minir.

***Kollegiyanın sədri, Azərbaycan***
***Respublikasının Maliyyə naziri***
**S. Şərifov**